**İnternat məktəblərindəki şagirdlərin karyera qayğıları və planları**

**JALƏ ƏLİYEVA**

**Təhsil üzrə Menecment, ADA Universiteti**

**2025**

**HƏQİQİLİK BƏYANATI**

Mən ADA-nın plagiat siyasəti ilə tanış olmuşam və təsdiq edirəm ki, "İnternat məktəblərindəki şagirdlərin karyera qayğıları və planları" adlı bu dissertasiyanın məzmunu mənim şəxsi işimdir. Bu işi elmi əxlaq və ənənələrə zidd olan hər hansı bir yol və yardımdan istifadə etmədən yazdığımı, istifadə etdiyim əsərlərin yalnız mənbələr bölməsində göstərilənlərdən ibarət olduğunu və bu əsərləri hər dəfə istifadə etdikdə istinad etməklə faydalandığımı bəyan edir və bunu şərəfimlə təsdiq edirəm. Bununla bildirirəm ki, ADA Universitetində magistratura səviyyəsi üzrə təqdim etdiyim bu magistrlik dissertasiyası, ilkin tədqiqat və nailiyyətim heç bir dərəcə və imtahan üçün təqdim olunmayıb.

İmza: J. S. ƏLİYEVA

12.10.2025

## Minnətdarlıq

Bu tədqiqatın ərsəyə gəlməsində mənə dəstək olan hər kəsə dərin təşəkkürümü bildirirəm. Magistratura dissertasiya rəhbərim hörmətli Qoşqar Məhərrəmova, tədqiqat layihəsinin hazırlanması mərhələsində qazandığım bilik və bacarıqlara görə dəyərli müəllimlərim Könül Abaslıya, Rza Məmmədova, Abbas Abbasova, eləcə də magistratura təhsili müddətində bizə peşəkarlıqla dəstək göstərən dekan Ülviyyə Mikayılovaya səmimi təşəkkürümü bildirirəm.

İnternat məktəbinin rəhbərliyinə və pedaqoji heyətinə, xüsusilə də müsahibələrin təşkili və həyata keçirilməsində göstərdikləri anlayış və əməkdaşlığa görə minnətdaram. Tədqiqatda iştirak edən şagirdlərə isə səmimi və açıq fikirlərini bölüşdükləri üçün xüsusi təşəkkür edirəm.

Eyni zamanda təhsil həyatım boyu mənə daima mənəvi dəstək göstərən anam Aybəniz Ağayevaya, həyat yoldaşım Pərviz Əliyevə və övladlarım Fərəh və Kamala sonsuz təşəkkürümü bildirirəm.

## Xülasə

Bu tədqiqat Bakı şəhərində yerləşən bir internat məktəbində təhsil alan VII–IX sinif şagirdlərinin karyera planlaması və karyera qayğıları ilə bağlı vəziyyətini araşdırır. Tədqiqatın məqsədi internat məktəblərində şagirdlərin karyera planlarını və qayğılarını sistemli şəkildə araşdırmaq, karyera qayğısı ilə bağlı mövcud dəstək mexanizmlərinin səmərəliliyini öyrənməkdir.

Tədqiqatda 11 şagird iştirak etmişdir. Əlavə olaraq internat məktəbinin pedaqoji heyəti ilə fokus qrup müsahibəsi aparılmışdır. Araşdırma situasiya tədqiqatı yanaşmasına əsaslanmış, datalar yarı strukturlaşdırılmış müsahibə forması vasitəsilə toplanmış və məzmun təhlili üsulu ilə analiz edilmişdir.

Əldə olunan nəticələr göstərir ki, internat məktəblərində karyera istiqamətində dəstək əsasən formal xarakter daşıyır, peşə tanıtımı və mentorluq imkanları məhduddur, informasiya texnologiyalarına çıxış isə zəifdir. Resurs çatışmazlığı şagirdlərin gələcək həyata hazırlanmasında ciddi maneə yaradır. Şagirdlər arasında özünə inamsızlıq, qeyri-müəyyənlik və emosional yüklənmə halları müşahidə olunur. Müəllimlərin fərdi təşəbbüsləri müəyyən müsbət təsir göstərsə də strukturlaşdırılmış və sistemli dəstək mexanizmlərinin olmaması karyera planlamasına mənfi təsir edir.

Araşdırma nəticəsində sosial-koqnitiv karyera nəzəriyyəsi və özünü-determinasiya nəzəriyyəsi kontekstində internat məktəbləri üçün adaptiv və ehtiyacyönümlü karyera dəstəyi modellərinin hazırlanması təklif olunur.



***Açar sözlər:*** internat məktəbi,  karyera planlaması, karyera dəstəyi,karyera qayğıları

**Mündəricat**


HƏQİQİLİK BƏYANATI ..... 2
Xülasə ..... 4
Mündəricat ..... 5
I FƏSİL ..... 7
GİRİŞ ..... 7
1.1. Tədqiqatın məqsədi ..... 7
1.2. Tədqiqat sualları ..... 8
1.2. Tədqiqatın əhatə dairəsi ..... 8
II FƏSİL ..... 9
ƏDƏBİYYAT İCMALI ..... 9
2.2. Bir anlayış olaraq karyera inkişafı və planlaması ..... 12
2.3. Karyera qayğısı ..... 16
III FƏSİL ..... 20
METODOLOGİYA ..... 20
3.1. Məlumatların toplanması və təhlili ..... 21
3.1. Tədqiqatın iştirakçıları ..... 22
3.4. Tədqiqatın məhdudiyyətləri ..... 23
IV FƏSİL ..... 25
TAPINTILAR ..... 25
4.1. İştirakçıların demoqrafik göstəricilərinə dair məlumatlar ..... 25
4.2. Tema 1. - Karyera seçimləri və arzuları ..... 26
4.2.1. Peşələrə şəxsi maraq ..... 28
4.2.2. Qeyri-müəyyənlik və tərəddüd ..... 29
4.2.3. Sosial təsir və ailə dəstəyi ..... 30
4.3. Tema 2. - Karyeraya hazırlıq və məktəbin rolu ..... 31
4.3.1. Məktəbin karyera yönləndirmə imkanları ..... 32
4.3.2. Müəllimlərin istiqamətləndirici rolu ..... 33
4.3.3. Resurs çatışmazlığı ..... 34
4.3.4. Əlavə fəaliyyətlərin rolu ..... 35
4.4. Tema 3. - Şagirdlərin karyera qayğıları ..... 36
4.4.1. Gələcəyə dair narahatlıq və qeyri-müəyyənlik hissi ..... 36
4.4.2. Ailə dəstəyi ..... 37
4.4.3. Maddi vəziyyət və sosial şəraitin təsiri ..... 38
4.5. Fokus qrup tapıntıları ..... 39
4.5.1. Tema 1. - Məktəbin karyeraya yönləndirmə və təcrübə imkanları ..... 40

4.5.2. Karyera yönləndirmə sistemi ..... 41
4.5.3. Resurs və infrastruktur çatışmazlığı ..... 42
4.5.4. Əlavə fəaliyyətlərin məhdudluğu ..... 43
4.6. Tema. 2 - Ailə dəstəyinin azlığı ..... 44
4.6.1. Valideyn marağı ..... 45
4.6.2. Dəstək əvəzinə maneəçilik ..... 45
4.7. Tema 3. - Dövlət dəstəyinə ehtiyac və post-məktəb dövrü nəzarət boşluğu ..... 47
4.7.1. Dövlət nəzarət və izləmə mexanizmi ..... 48
4.7.2. Dövlət dəstəyinin və proqramları ..... 48
4.7.3. Məktəbdən sonrakı adaptasiya və məşğulluq ..... 49
V FƏSİL ..... 50
NƏTİCƏLƏR və TÖVSİYƏLƏR ..... 50
5.1. Nəticə ..... 50
5.2. Tövsiyələr ..... 55
ƏLAVƏLƏR ..... 66
Əlavə 1. Etik sözləşmə formu ..... 66

# I FƏSİL

# GİRİŞ

Müasir dövrdə gənclərin karyera planlaşdırması, peşə seçimi və öz potensiallarını reallaşdırmaq bacarıqları cəmiyyətin sosial-iqtisadi inkişafı ilə sıx bağlıdır. Lakin internat məktəblərində təhsil alan şagirdlər sosial mühit, ailə dəstəyi və informasiya imkanlarının məhdudluğu səbəbindən karyera yönümlü qərarlar qəbul etməkdə ciddi çətinliklərlə üzləşirlər. Bu səbəbdən onların karyera qayğılarını, bu qayğıların formalaşma səbəblərini və həlli yollarını öyrənmək elmi və praktiki baxımdan zəruridir.

Araşdırma internat məktəblərində təhsil alan şagirdlərin yaşadıqlarını nəzərə alaraq onların karyera planlaşdırmasına təsir edən amilləri müəyyənləşdirməyə yönəlmişdir. Nəticələr təhsil sistemində karyera yönümlü dəstək mexanizmlərinin qurulması, karyera məsləhət xidmətlərinin təkmilləşdirilməsi və fərdi inkişaf proqramlarının hazırlanması üçün praktik baza rolunu oynaya bilər.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycanda bir internat məktəbi mühitində yuxarı sinif şagirdlərinin karyera qayğıları ilk dəfə sistemli şəkildə təhlil edilir. Bu qayğıların səbəbləri müəyyənləşdirilir, onların karyera yönümlü qərarvermə prosesinə təsir edən faktorlar üzə çıxarılır.

## 1.1. Tədqiqatın məqsədi

Bu tədqiqatın məqsədi internat məktəblərində şagirdlərin karyera planlarını və qayğılarını sistemli şəkildə araşdırmaq, karyera qayğısı ilə bağlı mövcud dəstək mexanizmlərinin səmərəliliyini öyrənməkdir.

## 1.2. Tədqiqat sualları

Tədqiqatın məqsədinə uyğun əsas tədqiqat sualları aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- İnternat məktəblərində şagirdlərin karyera qayğıları və planları nələrdir?
- Karyera planları ilə bağlı mövcud dəstək mexanizmləri nələrdir?

## 1.2. Tədqiqatın əhatə dairəsi

Tədqiqat 2024–2025-ci tədris ilində VII–IX siniflərdə təhsil alan şagirdlərin verdiyi məlumatlarla məhdudlaşır. Tədqiqat məqsədli seçim üsulu (purposeful sampling) ilə seçilmiş bir internat məktəbində aparılmışdır və yalnız həmin təhsil müəssisəsindəki şagirdləri əhatə edir.

# II FƏSİL

# ƏDƏBİYYAT İCMALI

Bu fəsildə araşdırmanın nəzəri bazasının formalaşmasına xidmət edən ədəbiyyat icmalı təqdim olunur. Əvvəlcə karyera inkişafı, planlaması və karyera qayğısı anlayışlarının müxtəlif yanaşmalar əsasında təhlili yer alıb. Mövzunun elmi əsaslara söykənməsi üçün həm yerli və beynəlxalq mənbələrə istinad edilərək internat məktəblərinin mahiyyəti və bu təhsil modellərinin spesifik xüsusiyyətləri nəzərdən keçirilib.

## 2.1. İnternat məktəblərinə ümumi baxış

Müasir əmək bazarının daim dəyişən tələbləri gənclərdən daha çevik, çoxşaxəli bacarıqlara sahib olmağı tələb edir (OECD, 2021). Bu isə məktəb dövründən etibarən şagirdlərin düzgün istiqamətləndirilməsini, onların karyera planlamasının məqsədyönlü şəkildə aparılmasını zəruri edir. Xüsusilə, internat məktəblərində təhsil alan şagirdlər üçün bu dəstək daha da vacibdir. Bu qrup şagirdlər ailə mühitindən uzaqda, sərt qaydalar və məhdud sosial ünsiyyət çərçivəsində formalaşırlar ki, bu da onların psixososial inkişafında bir sıra çətinliklər yaradır (Taveira və d., 2012; Zimmerman və Blyth, 1999).

İnternat tipli müəssisələr şagirdlər üçün yalnız təhsil mühiti deyil, həm də gündəlik sosial həyatlarının mərkəzi və əsas sosiallaşma məkanı kimi çıxış edir (Eronen, Laakso, və Pösö, 2009). İnternat məktəbləri Qərb ölkələrində qədim tarixi olan bir təhsil formasıdır. Son onilliklərdə bu model Çində də geniş yayılmış və təhsil sisteminin bütün pillələrində,yəni məktəbəqədər mərhələdən ali təhsilə qədər tətbiq edilmişdir (Zhong və d., 2024). Burada internat məktəbləri mövzusu müxtəlif istiqamətlərdə araşdırılmışdır. Bu tədqiqatlar internat məktəblərinin funksional xüsusiyyətləri (White, 2004), ailə–məktəb münasibətləri (Ben-David

və Erez-Darvish, 1997), ibtidai internat məktəblərinin uşaqların psixi sağlamlığına təsiri (Tang və d., 2020) kimi mövzuların araşdırılmasına yönəlmişdir.

Bəzi tədqiqatçılar bildirirlər ki, internat məktəbi şagirdlərin həyatında tramplin rolu oynasa da (Khalidah və d., 2014), onların akademik nəticələrinə müsbət təsir göstərə bilsə də (Chang və d., 2023), lakin valideynlərindən ayrılan uşaqların şəxsiyyətinin formalaşmasına müəyyən mənfi təsirləri ola (Mwangi və Mbogo, 2018) və düzgün fiziki inkişafını əngəlləyə bilər (Olaka, 2014).

İnternat məktəblərində böyüyən şagirdlər üçün sosial dəstək sistemlərinin zəifliyi gələcəkdə peşə ilə bağlı düzgün və inamlı qərar vermələrini çətinləşdirə bilər. Ryan və Deci (2000) tərəfindən formalaşdırılmış özünü-determinasiya nəzəriyyəsinə əsasən, insanın daxili motivasiyası və seçdiyi yolla bağlı kontrol hissi onun ümumi rifahına və qərarvermə keyfiyyətinə müsbət təsir edir. Lakin internatdakı şagirdləri bu daxili kontrol imkanından əksər hallarda məhrum olur və bu da karyera qərarlarını təsirsiz və yönsüz hala gətirir.

Fredrick və d. (2022) qeyd edir ki, bu cür uşaqlar üçün xüsusi hazırlanmış karyera məsləhət proqramları, psixoloji dəstək, mentorluq və sosial bacarıqların inkişafı vacibdir. Kayacan və Özkanan (2023) tərəfindən aparılan sistematik ədəbiyyat təhlilinə görə, məhz strukturlaşdırılmış proqramlar və emosional-sosial dəstək mexanizmləri həssas qruplarla işləyən karyera xidmətlərinin effektivliyini artırır. Bu yanaşma Eccles və Wigfield (2002) tərəfindən də dəstəklənmişdir; müəlliflər bildirirlər ki, mənfi psixoloji amillər, özünəinamın olmaması, məhdud sosial bacarıqlar, peşə seçimlərini əngəlləyən əsas baryerlərdəndir.

Beynəlxalq səviyyədə aparılmış bir sıra empirik tədqiqatlar göstərir ki, sosial-emosional (SEL) öyrənmə proqramları yalnız akademik uğuru deyil, həm də şagirdlərin emosional rifahını və sosial uyğunlaşmasını artırır. Tədqiqat vurğulayır ki, erkən yaşlardan tətbiq edilən karyera istiqamətləndirmə strategiyaları şagirdlərdə həm müstəqil qərarvermə bacarığını, həm də real dünyaya uyğunlaşmanı gücləndirir (Durlak və d., 2011).

Eyni zamanda Holland (1997) tərəfindən inkişaf etdirilmiş şəxsiyyətə uyğun peşə seçimi nəzəriyyəsinə görə insanların maraq və dəyərləri ilə uyğunlaşan karyera yolları həm şəxsi məmnunluq, həm də uzunmüddətli peşə uğuru ilə əlaqəlidir. Brown və Lent (2013) tərəfindən təqdim edilən sosial-koqnitiv karyera nəzəriyyəsi isə göstərir ki, şagirdlərdə özünəinamın və özünü tənzimləmə bacarıqlarının inkişaf etdirilməsi onların karyera planlamasında aktiv iştirakını təşviq edir.

Dünyada internat məktəblərinin əsas məqsədi sosial cəhətdən həssas qrupların xüsusilə də valideynsiz, baxımsız və ya yüksək riskli ailələrdən gələn uşaqların təhsilə və bərabər imkanlara çıxışını təmin etməkdir (Save the Children, 2019). Aparılmış tədqiqatlar internat məktəblərinin mürəkkəb psixososial və pedaqoji kontekstdə fəaliyyət göstərdiyini üzə çıxarır. Jakubowski və Sitko-Dominik (2018) Polşa internat məktəblərində sosial dəstəyin şagirdlərin psixoloji rifahına təsirini araşdıraraq nəticə çıxarır ki, sosial əlaqələrə çıxış imkanı məhdud olan uşaqlarda özünütənzimləmə və məqsəd qoyma bacarıqları zəif inkişaf edir. Eynilə, Zhou və Wang (2021) Çin kontekstində göstərirlər ki, internat məktəbi şagirdlərinin emosional rifah səviyyəsi ailə dəstəyi olan həmyaşıdlarına nisbətən daha aşağıdır və bu durum, onların təhsil və peşə seçimlərinə də mənfi təsir edir.

Bu məktəblərdə böyüyən uşaqların özünəinamı, sosial inteqrasiya səviyyəsi və karyera gözləntiləri ailə mühitində böyüyən uşaqlardan nəzərəçarpacaq dərəcədə fərqlənir. Taveira və d. (2012) göstərmişdir ki, internat mühitində böyüyən gənclər arasında ali təhsil alma ehtimalı əhəmiyyətli dərəcədə daha aşağıdır. Eccles və Roeser (2011) qeyd edir ki, ailə və yaxın sosial dəstək sistemlərinin olmaması uşaq və yeniyetmələrdə özünüidarəetmə və motivasiya səviyyəsini zəifledir.

Əlavə olaraq beynəlxalq təşkilatlar o cümlədən, UNESCO (2021) və OECD (2020) internat məktəblərində təhsil alan şagirdlərin rifahına yönəlmiş proqramların inkişaf etdirilməsini prioritet məsələ kimi təqdim edirlər. Xüsusilə karyera inkişafı, peşə maraqlarının

formalaşması və motivasiyaedici dəstək proqramları bu məktəblərdəki şagirdlərin gələcək uğuru üçün mühüm mexanizmlər kimi vurğulanır (OECD, 2021).

İnternat məktəblərində həm sosial təcrid, həm də peşə yönümünün zəif olması bir çox ölkədə olduğu kimi Azərbaycanda da bu şagirdlərin gələcək imkanlarını məhdudlaşdırır. Azərbaycan kontekstində internat məktəbləri əsasən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən idarə olunur. Elm və Təhsil Nazirliyinə göndərdiyimiz sorğunun cavabı olaraq qeyd olunub ki, ölkə üzrə 37 internat məktəbi fəaliyyət göstərir ki Onlardan 15-i Bakıda, 22-si rayonlarda yerləşir. Həmin müəssisələrdə 13 340 şagird təhsil alır.

UNICEF-in (2023) Avropa və Mərkəzi Asiya regionu üzrə hesabatında qeyd olunur ki, bəzi ölkələrdə, o cümlədən Azərbaycan və Türkiyədə internat məktəblərindən istifadənin artması meyli müşahidə olunur. Bu, həssas qruplara aid uşaqların ailədən kənar təhsil müəssisələrində sayının çoxalması ilə bağlı narahatlıqları gücləndirir.

### 2.2. Bir anlayış olaraq karyera inkişafı və planlaması

Karyera inkişafı uşaqlarda şəxsiyyət formalaşması və gələcək planlama bacarıqlarının təməlini təşkil edir. Magnuson və Starr (2000) qeyd edir ki, azyaşlıların iş dünyası və gələcək peşə haqqında təsəvvürlərinin formalaşmasında yalnız karyera nəzəriyyələri deyil, eyni zamanda uşaq inkişafı nəzəriyyələri də nəzərə alınmalıdır. Bu yanaşma fərdi inkişafla bağlı sosial, emosional və koqnitiv faktorların karyera planlamasına təsirini birləşdirən inteqrativ modelə əsaslandırır.

Bu sahədə klassik nəzəriyyələrdən biri Superin "Həyat mərhələləri nəzəriyyəsi"dir (Super, 1980). Superə görə, karyera inkişafı fərdin özünü dərk etməsi və bu özünü dərk etmənin zamanla dəyişməsi prosesi ilə əlaqəlidir. Bu nəzəriyyə internat məktəblərində yaş qruplarına uyğunlaşan diferensial karyera dəstəyi proqramlarının əsasını təşkil edə bilər. Superin

yanaşmasını dəstəkləyən Zunker (2016) isə vurğulayır ki, uşaqların karyera ilə bağlı gözləntiləri yetkinlik səviyyəsindən fərqli olur və onların fərdi uğur meyarları dəyişkəndir. Bu səbəblə, yetkin mentorlar və müəllimlər vasitəsilə yönləndirmə vacibdir.

Eyni zamanda Holland (1997) tərəfindən irəli sürülən "Şəxsiyyətə əsaslanan peşə uyğunluğu" nəzəriyyəsi də internat məktəbi mühitində mühüm tətbiq sahəsinə malikdir. Holland göstərir ki, şəxsiyyət tiplərinə uyğun peşələrin seçilməsi peşə məmnuniyyətini və uğuru artırır. Bu nəzəri yanaşma Savickas və d. (2009) inkişaf etdirdiyi "Karyera quruluşu nəzəriyyəsi" ilə tamamlanır. Bu nəzəriyyəyə görə şagirdlərin həyat hekayələri onların karyera qərarlarında əsas rol oynayır və bu hekayənin strukturlaşdırılması onların sosial identitetinin formalaşmasına töhfə verir. Karyera planlaması fərdin öz maraqlarına, bacarıqlarına və dəyərlərinə uyğun olaraq gələcək peşə yolunu müəyyənləşdirməsi və bu yolda zəruri bilik, bacarıq və resursları əldə etməsi prosesi kimi tərif olunur (Gati və Levin, 2014). Bu proses sadəcə bir iş tapmaqdan ibarət deyil, əksinə, fərdin özünü reallaşdırmasına, mənalı həyat yaşamasına və sosial inteqrasiyasına xidmət edən uzunmüddətli inkişaf trayektoriyasıdır (Savickas, 2005; Super, 1980). Karyera planlaması həm şəxsi, həm sosial, həm də struktur səviyyədə formalaşan kompleks və çoxşaxəli bir sistemdir.

Super (1980) və Zunker (2016) kimi klassik müəlliflər karyera planlamasını həyat boyu davam edən bir inkişaf mərhələləri silsiləsi kimi izah edir. Superin nəzəriyyəsində peşə seçimi və karyera qərarları fərdin "özünü dərk etməsi" ilə birbaşa əlaqəlidir. Bu təkamül, xüsusilə yeniyetməlik dövrlərində kritik bir proses sayılır, çünki bu dövrdə formalaşan mənlik anlayışı gələcəkdə peşə və həyat yoluna təsir edir. Zunker isə vurğulayır ki, fərdlərin karyera ilə bağlı qərarlarında subyektiv "uğur meyarları" rol oynayır. Yəni, hər kəs üçün karyera uğurunun göstəriciləri eyni deyil.

Holland (1997) karyera planlamasına daha çox şəxsiyyət yönümlü yanaşma gətirərək, fərdlərin öz şəxsiyyət tiplərinə uyğun peşələri seçdikdə daha çox məmnunluq və uğur əldə

etdiklərini göstərmişdir. Bu yanaşma daha sonra Savickas və d. (2009) tərəfindən “Life design” (Həyat dizaynı) modeli ilə genişləndirilmiş, fərdin karyera hekayəsinin onun şəxsiyyətinin, təcrübələrinin və məqsədlərinin bir ifadəsi olduğu göstərilmişdir.

Klimovun (1996) peşəyönümlü inkişaf modeli isə xüsusilə post-sovet ölkələrində geniş tətbiq olunmuş və qabiliyyət-maraqlar uyğunluğu prinsipinə əsaslanmışdır. O, vurğulayır ki, peşə seçimi yalnız bacarıqlara deyil, həm də sosial adaptasiyaya əsaslanmalıdır.

Sosial aspektlərə diqqət yönəldən Viqotskinin (1934) sosial-mədəni nəzəriyyəsi öyrənmənin sosial kontekstdə formalaşdığını və öyrənənin daha təcrübəli şəxslərlə qarşılıqlı təsirdə olduqda inkişafa nail olduğunu bildirir. Bu hal internat məktəblərində mentorluq sistemlərinin effektli ola biləcəyinə dair əsas yaradır. Məhz bu çərçivədə Brown və d. (2018) internat məktəblərində mentorluq və kouçluq proqramlarının şagirdlərin peşə hazırlığını və özünəinamını artırdığını göstərir. Liu (2021) və Martila (2017) kimi tədqiqatçılar isə mentorluq və staj proqramlarının real dünya ilə məktəb arasındakı əlaqəni gücləndirdiyini qeyd edir.

Lent və d. (1994) tərəfindən hazırlanmış sosial-koqnitiv karyera nəzəriyyəsi, şagirdlərin özünəinamı, nəticə gözləntiləri və maraqlarının peşə seçiminə təsir etdiyini bildirir. İnternat məktəbi şagirdlərində isə bu üç komponentin hər biri zəif inkişaf etmiş olur və buna görə də bu nəzəriyyənin tətbiqi xüsusi əhəmiyyət daşıyır. Şunk və Zimmerman (2012) isə özünü tənzimləmə öyrənməsi modelini təqdim edərək göstərirlər ki, şagirdlərin öz hədəflərini təyin etməsi və müstəqil qərarlar qəbul etməsi onların gələcək peşə həyatında uğurunu artırır.

Müasir beynəlxalq təcrübələr də bu nəzəri əsasları praktikada təsdiqləyir. Finlandiyadakı internat məktəblərində şagirdlərin real peşə mühitləri ilə tanış olmaları üçün staj proqramları və karyera yarmarkaları təşkil olunur. (Martila, 2017). Rusiyada isə Aleksandrova (2018) internat məktəblərində rəqəmsal karyera planlama platformalarının istifadəsinin əhəmiyyətini vurğulayır. Mentorluq və fərdi karyera planlama modellərinin